“Ani Ödənişlər Sistemində İştirakçıların fəaliyyətinin təşkili üzrə prosedur Qaydalar”a

Əlavə 4

## Ani Ödəniş Sistemi vasitəsilə əməliyyatların aparılması REQLAMENTİ

1. AÖS aşağıdakı vaxt intervallarına uyğun fəaliyyət göstərir:

| Vaxt | Əməliyyatların məzmunu | İcraçı |
|---|---|---|
| Əməliyyat günü: 00:00 - 24:00 | İştirakçılar tərəfindən ödəniş (o cümlədən, geri qaytarılma) tapşırığı və sorğuların göndərilməsi və qəbul edilməsi | İştirakçı |
| Əməliyyat günü: 00:00 - 24:00 | İştirakçılar tərəfindən AÖS-dəki hesablaşma hesabları üzrə debet limitinin müəyyənləşdirilməsi | İştirakçı |
| Əməliyyat günü: 00:00 - 00:05 | Yeni əməliyyat gününün açılması, əvvəlki əməliyyat günü üzrə hesablardan çıxarışların iştirakçılara göndərilməsi | Mərkəzi Bank |
| Növbəti iş günü: 09:55 - 10:05 | İştirakçılardan aparılmış əməliyyatlara görə xidmət haqlarının tutulması | Mərkəzi Bank |
| İş günü: 16:35 - 17:00 | İştirakçılardan aparılmış əməliyyatlara görə xidmət haqlarının hesablanması | Mərkəzi Bank |
| İş günü: 09:30 - 09:35 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 1-ci tənzimləmə sessiyasının icra edilməsi | Mərkəzi Bank |
| İş günü: 09:35 - 09:55 | 1-ci tənzimləmə sessiyasının icra statusu barədə bildirişin göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 13:00 - 13:05 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 2-ci tənzimləmə sessiyasının icra edilməsi | Mərkəzi Bank |
| İş günü: 13:05 - 13:15 | 2-ci tənzimləmə sessiyasının icra statusu barədə bildirişingöndərilməsi | Mərkəzi Bank |
| İş günü: 15:00 - 15:05 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 3-cü tənzimləmə sessiyasının icra edilməsi | Mərkəzi Bank |
| İş günü: | 3-cü tənzimləmə sessiyasının icra statusu barədə bildirişingöndərilməsi | Mərkəzi Bank |

| | | |
|---|---|---|
| 15:05 - 15:15 | | |
| İş günü:<br><br>16:20 - 16:25 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 4-cü tənzimləmə sessiyasının icra edilməsi | Mərkəzi Bank |
| İş günü:<br><br>16:25 - 16:35 | 4-cü tənzimləmə sessiyasının icra statusu barədə bildirişingöndərilməsi | Mərkəzi Bank |

2. **AÖS-də aparılan ödəniş əməliyyatının yuxarı həddi**

2.1. Bu Əlavənin 2.2-ci bəndində nəzərdə tutulan əməliyyatlar istisna olmaqla, AÖS-ün əməliyyat günü ərzində AÖS-də aparılan bir ödəniş əməliyyatının yuxarı həddi 40000 (qırx min) manatdır.

2.2. AÖS vasitəsilə iş günü ərzində (9:30-dan – 16:35-dək) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi, Mərkəzi Bank və "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" ASC tərəfindən göndərilən və alınan ödənişlər, HÖP ödənişləri, daşınmaz əmlakın özgəninkiləşdirilməsi xidməti üzrə ödənişlərin yuxarı həddi 5000000 (beş milyon) manatdır.

2.3. Zərurət yarandığı təqdirdə AÖS-də bu Reqlamentin 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulmuş limitlərin müvəqqəti artırılmasına Mərkəzi Bankın sədri və ya onu əvəz edən rəhbər şəxs tərəfindən qərar verilə bilər.